*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 467-473*

https://doi.org/10.62837/2025.3.467

**KƏMALƏ TƏHSİN qızı KƏRİMOVA (MÜCTƏHİDZADƏ)**

**Qəlbi Vətən sevgisiylə döyünən təzkirəçi-şair**

**Filologiya elmləri namizədi, dosent**
e-posta: kamala.kerimova@ibu.edu.tr; sadirzadekerimova@mail.ru
**ORCID ID** 0000-0002-2321-3864

**BOLU ABANT İZZƏT BAYSAL ÜNIVERSITETI, YABANCI DILLƏR YÜKSƏKOKULU, MÜTƏRCIM VƏ TƏRCÜMANLIK BÖLÜMÜ/TÜRKIYƏ**

**Xülasə**

Məqalədə Vətəni Qarabağı sonsuz məhəbbətlə sevən, onun gözəllik və özünəməxsusluqlarını böyük coşqu ilə qələmə alan, elm aləmində təzkirəçi-şair kimi tanınan Məhəmməd ağa Mirzə Sədray oğlu Müctəhidzadənin sevgi dolu əsərlərindən bəhs edilir.

Məhəmməd ağa Mirzə Sədray oğlu Müctəhidzadə XIX əsrin sonları və XX əsrin birinci yarısında Qarabağ ədəbi mühitində yetişən görkəmli ədəbi şəxsiyyətlərdən, xalq içərisində nüfuzu olan ziyalılardandır. Məhəmməd ağa mübarizələrlə dolu şanlı bir həyat yolu keçmiş, hələ gənc yaşlarında Qarabağ diyarının ictimai-siyasi və ədəbi mühitində xüsusi yeri və çəkisi olan şəxsiyyət kimi tanınmışdır. Onun bu mərtəbəyə ucalmasının başlıca səbəbi vətənini, xalqını sonsuz məhəbbətlə sevməsi və bu sevgini əsl vətənpərvər şair kimi əsərlərində tərənnüm edə bilməsi idi. Hələ gənc yaşlarında qəlbində vətənpərvərlik hissləri baş qaldıran Məhəmməd ağa bütün ömrü boyu bu hisslərə sadiq qalmış, istər ədəbi yaradıcılığında, istərsə də əməli işində bunları təsdiq etmişdir.

Məhəmməd ağa Müctəhidzadənin mövzu seçimi olduqca zəngin və rəngarəngdir. Yuxarıda da qeyd etdiyimiz kimi, bu mövzular içərisində Qarabağ, Vətən, xalq mövzuları xüsusi yer tutur və demək olar ki, onun əsərlərinin leytmotivini təşkil edərək yaradıcılığından qırmızı xətlə keçir.

Şair öz bədii fikrini qüvvətli, təsiredici şəkildə ifadə etmək üçün bəzən atalar sözlərini olduğu kimi işlətmiş, bəzən də onları məzmununa uyğun şəkildə yeniləşdirərək poetik mətnə daxil etmişdir.

Təqdim olunan çalışmada Məhəmməd ağa Müctəhidzadənin ədəbi irsi araşdırılır, onun poetik əsərləri hərtərəfli öyrənilir və şairin ictimai həyatda mövqeyi haqqında məlumat verilir.

**Açar sözlər**: *Müctəhidzadə, Qarabağ, Riyazül-aşiqin, Təzkireyi-Nəvvab, bədii irs*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 467-473*

# I. GİRİŞ

Məhəmməd ağa Müctəhidzadə 1867-ci ildə Şuşa şəhərində anadan olmuş, ilk təhsilini də bu şəhərdə almışdır. Şairin həyat və yaradıcılığı haqqında müəyyən məlumat olsa da, təvəllüd tarixi  hələ də mübahisəli qalaraq tam dəqiqləşdirilməmişdir. Tədqiqatçılar tərəfindən onun müxtəlif tarixlərdə (1867, 1875) anadan olduğu göstərilir.

Lakin təzkirəçi-şairin 1995-ci ildə kiril əlifbası ilə nəşr edilmiş "Riyazül-aşiqin" əsərində[1] onun 1867-ci ildə anadan olduğu göstərilir. Bu tarix onun pasportundan götürülmüşdür. Həmin sənəd 1943-cü ildə Bakı şəhəri, 3 saylı polis şöbəsi tərəfindən verilmişdir. Əldə belə bir sənədin olmasına baxmayaraq tədqiqatçı alim Nəsrəddin Qarayev onun 1867-ci ildə deyil[2], 1875-ci ildə anadan olduğunu qeyd edir[3]. Başqa bir mənbədə, şairi şəxsən tanıyan və ona ehtiramla yanaşan Mir Möhsün Nəvvabın təzkirəsində verilən məlumatda da şairin təvəllüd tarixi konkret deyil, təxmini olaraq göstərilir. Tanınmış ziyalı özünün "Təzkireyi-Nəvvab" əsərində yazırdı: "Cənab Məhəmməd ağa qarabağlı Mirzə Sədray oğlu Müctəhidzadənin oğludur və o, Şuşada dünyaya gəlmişdir. Ərəbcə, farsca və türkçə savadı var. Xoşsurət, xoş xasiyyətli, xoşsimalı və comərd təbiətli bir cavandır. Çox hörmətli cənab Əbdürrəhman ağa Saninin qardaşıdır. Müəəzileyh çox millətpərəst, millətpərvər, namuslu, qeyrətli bir şəxsdir... Təxəllüsü "Müştəri"dir [4].

Məhəmməd ağa vətənə olan sevgisini öz əməli işi ilə təsdiq etmiş, onun yolunda dəfələrlə həyatını təhlükə qarşısında qoymuşdur. O, bir qrup vətənpərvər insanları öz ətrafına toplayaraq xalqının, millətinin rifahı naminə məşəqqətli yollar keçərək kömək üçün qardaş türk xalqına müraciət etmiş və əsgəri qüvvələrin Qarabağa gətirilməsində mühüm rol oynamışdır. Vətən, xalq naminə çəkdiyi əzab-əziyyətlər şairi sarsıda bilməmişdir[5].

Araştırmalar göstərir ki, Məhəmməd ağa ən çətin anlarda belə Şuşanı tərk etməmiş və ömrünün əksər hissəsini bu şəhərdə keçirmişdir. Şairin həyatına yaxından bələd olan Mirzə Xosrov Axundovun yazdığına görə Məhəmməd ağanın Şuşanın Dəmirçilər məhləsində yerləşən ikimərtəbəli, on otaqdan ibarət olan mənzili hər zaman dostlarının üzünə açıq olmuş, "... bəzən şairlər onun evinə cəm olub müxtəlif bədii söhbətlər edər və şeir deyərlərmiş"[6]. Bu deyilənlər sübut edir ki, Məhəmməd ağa sədaqətli varis olaraq XIX əsrin 60-cı illərindən Qarabağda fəaliyyətə başlayan "Məclisi-üns" və "Məclisi-fəramuşarı"ın fəaliyyətini XX əsrin əvvəllərinə qədər davam etdirmişdir[7].

---

[1] Müctəhidzadə M. "Riyazül-aşiqin", Bakı: 1995, s. 3.
[2] Qarayev N. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: 2012, s. 156.
[3] Poetik məclislər. (Toplayan və tərtib edəni N. Qarayev). Bakı: 1987, s. 234.
[4] Nəvvab M.M. "Təzkireyi-Nəvvab" (əski əlifba ilə) Bakı: 1913, s. 186.
[5] Raqub Kərimov "Məhəmməd ağa Msştəri (Müctəhidzadə. Əsərləri". Bakı, "Elm və təhsil", 2021, s. 6.
[6] Axundov M. X. Ömürdən səhifələr. Bakı: 1992, ss. 25-26.
[7] Raqub Kərimov "Məhəmməd ağa Msştəri (Müctəhidzadə. Əsərləri". Bakı, "Elm və təhsil", 2021, s. 14.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 467-473*

## II. AZƏRBAYCAN TƏZKİRƏÇİLİK TARİXİ HAQQINDA

Təzkirə – görkəmli şəxsiyyətlərin, xüsusən şair, rəssam və b.-nın həyatı haqqında qeydlər və əsərlərindən nümunələr verilən əsərdir[8].

Təzkirəçilik Azərbaycan ədəbiyyatşünaslığının söykəndiyi və bəhrələndiyi ən mühüm sahələrdən biridir. Məhz, bu səbəbdən Şərqin hər üç dilində qiymətli sənət inciləri yaratmış şair və ədiblərimizin adlarına biz türk ədəbi mənbələrindən başqa, istər fars, istərsə də ərəbdilli qaynaqlarda bol-bol rast gəlirik.

Şair təzkirələri ədəbiyyat tarixinin çox dəyərli və əvəzsiz qaynaqlarındandır. Akademik B.Nəbiyev uzaq keçmişimizə dair poetik irsin toplanıb tədqiq edilməsində, ədəbi fakt və hadisələrin tarixlərinin dürüstləşdirilməsində, filoloji tədqiqatların aparılmasında, nəhayət, ədəbiyyat tarixlərinin və ayrı-ayrı poetik simalara həsr olunmuş monoqrafiyaların yazılmasında ilk məxəz kimi təzkirələrin çox böyük əhəmiyyəti olduğunu önəmlə vurğulayır[9].

Sözün həqiqi mənasında, əgər təzkirələr qələmə alınmasaydı, bu gün bir çox şairin adı ədəbiyyat tarixindən silinəcəkdi.

Musalı Vüsalə Azər qızı “Azərbaycan təzkirəçilik tarixi” monoqrafiyasında yazır: “Azərbaycan təzkirələri dedikdə, müəlliflərin milli mənsubiyyətini əsas götürürük. Belə ki, yazıldığı dildən və məkandan asılı olmayaraq, azərbaycanlı müəlliflərin qələmə aldıqları təzkirələri Azərbaycan təzkirələri hesab edirik. Məsələyə orta əsrlər dövrünün prizmasından yanaşdıqda, burada “Azərbaycan təzkirələri” və “azərbaycanlı təzkirəçilər” ifadələri də müəyyən qədər şərti xarakter daşıyır.

Azərbaycanlı təzkirəçilər tərəfindən qırxdan artıq təzkirənin qələmə alınmasına baxmayaraq, bunların çox az qismi tədqiqata cəlb olunmuş və nəşr edilmişdir. İndiyə kimi bəzi Azərbaycan təzkirələri – Sadiq bəy Əfşarın “Məcməül-xəvas”ı, Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin “Xeyrati-hesan”, Seyid Əzim Şirvaninin “Təzkirə”si, Məhəmməd ağa Müctəhidzadənin “Riyazül-aşiqin”i, Məhəmmədəli Tərbiyətin “Danişməndani-Azərbaycan”ı, Mir Möhsün Nəvvabın “Təzkireyi-Nəvvab”ı, Şahin Fazilin “Təzkireyi-Şahin”i respublikamızda işıq üzü görmüşdür”[10].

Ümumşərq təzkirəçilik ən`ənələrinin ən yaxşı keyfiyyətlərindən bəhrələnən Azərbaycan təzkirəçiliyi hələ orta əsrlərdən bu bənzərsiz sənət nümunələrini

---

⁎ Babam Məhəmməd ağa Müctəhidzadə haqqında çox qiymətli və nadir hesab etdiyimiz bioqrafik mə’lumatlarda mərhum atam Təhsin Məhəmməd ağa oğlu Müctəhidzadənin xatirələrinə, hal-hazırda həyatda olan əmim Hafiz Məhəmməd ağa oğlu Müctəhidzadəylə və həmçinin şairin müasirləri ilə şəxsən görüşüb söhbət etmiş filologiya üzrə elmlər doktoru, professor Raqub Kərimovun 2021-ci ildə nəşr edilmiş “Məhəmməd ağa Müctəhidzadə. Əsərləri” adlı kitabına istinad edirik və bu səbəbdən dəyərli ziyalı, alimimizə öz dərin minnətdarlığımızı bildiririk.

[8] Azərbaycan dilinin izahlı lüğəti. https://azerbaijani_enc.en-academic.com/

[9] Nəbiyev B. Şahinin qanadları: (“Təzkireyi-Şahin” haqqında rəy) / «Elm» qəzeti. – 2002. – 19 oktyabr.

[10] Musalı V. A. Azərbaycan təzkirəçilik tarixi. – Bakı, “Elm və təhsil”, 2012, ss. 8-9.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 467-473*

yaratmışdır. Bura azərbaycanlı müəlliflərin yaratdıqları təzkirələrlə yanaşı, Azərbaycan-türk şairləri haqqında maraqlı mə`lumatlar verən ərəb-fars dilli təzkirələri də aid etmək olar.

Təzkirələrin orta əsr ən'ənələri XIX əsrdə ümumşərq kontekstindən tədricən aralanaraq konkret milli-məhəlli çizgilər alır, xarakter kəsb edir. Buna nümunə olaraq XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Azərbaycanda yaranmış təzkirələri göstərmək olar. Bu silsilədən "Təzkireyi-Nəvvab" və "Riyazül-aşiqin" əsərləri ən bariz və gözəl nümunələrdir. İkinci əsər formaca orta əsr Şərq təzkirəçiliyinin müasir çap imkanları ilə tərtib və nəşr edilmiş ən qiymətli təqdimatıdır. Qarababağ şairləri haqqında yazılmış və nəşri iki cilddə nəzərdə tutulmuş bu əsərin çox təəsüflər olsun ki, yalnız 79 müəllifi əhatə edən birinci cildi çap olunmuşdur. Əsrimizin əvvəllərindəki inqilablar dalğası bu əsərin ikinci cildinin nəşrinə maneçilik törətsə də, yaşadığımız günlərin çevrilişləri kitabın birinci cildinin on illərdən sonra təkrar nəşrinə, geniş yayılmasına imkan yaratdı[11].

## III. "RİYAZÜL-AŞİQİN" və "QARABAĞNAMƏ" əsərləri

Məhəmməd ağa Müctəhidzadənin ədəbiyyat aləmində tanıdan, ona xüsusi ədəbi mövqe verən "Riyazül-aşiqin" adlı təzkirəsi olmuşdur. Şair gənc yaşlarından xüsusi məhəbbətlə seçib topladığı sənət nümunələrini bu təzkirəyə daxil etmişdir.

Müctəhidzadənin bu əsəri XIX əsr Azərbaycan ədəbiyyatının öyrənilməsində əvəzsiz mənbə hesab olunur. "Şuşa ədəbi, ictimai-siyasi mühitində böyüyən Məhəmməd ağa "Şişə içrə bulunan ürəfayi-nikfən və şüərayi-şirinsüxənlərlə ülfət etməyi" özünə lazım və vacib hesab edərək "Riyazül-aşiqin" adlı təzkirəsini yazmaq fikrinə düşür. Bu işə başlamazdan öncə Qarabağın məşhur ziyalılarından olan ictimaiyyətdə açıq fikirli, yenilikçi ziyalı kimi tanınan İsgəndər bəy Rüstəmbəyovla məsləhətləşməyi vacib bilib fikrini ona söyləyir. İsgəndər bəy onun bu ideyasını bəyənərək öz xeyir-duasını verir.."[12]. 1907-ci ildən başlayaraq Müctəhidzadə bir neçə il ərzində dövrü üçün az-çox məşhur olan səksənə yaxın şairin seçmə əsərini toplayıb 1910-cu ildə "Riyazül-aşiqin" ("Aşiqlər bağı") adı altında, İstanbulda təzkirə şəklində nəşr etdirir.

Əsərin müqəddiməsindən məlum olur ki, Müctəhidzadə də Nəvvabın yolu ilə gedərək, əsərini iki hissəyə bölmüş, birinci hissədə təzkirə yazılarkən həyatda olmayan şairlərin əsərlərini, ikinci hissədə isə təzkirə tərtib olunarkən yaşayıb-yaradan şairlərin şeirlərini və onlar haqqında qısa məlumat vermişdi. Bu isə XIX əsr təzkirələri üçün xarakterik hal idi.

Əldə edilən bəzi arxiv materiallardan məlum olur ki, Məhəmməd ağa təzkirənin ikinci cildini də nəşrə hazırlamış və onu da İstanbula apararaq nəşr etdirmək fikrində

---

[11] Müctəhidzadə Məhəmmədağa. Riyazül-aşiqin //tərtib edib çapa hazırlayan və ön sözün müəllifi Əkrəm Bağırov. Bakı: Azərbaycan, 1995, s. 3.
[12] Raqub Kərimov "Məhəmməd ağa Msştəri (Müctəhidzadə. Əsərləri". Bakı, "Elm və təhsil", 2021, s. 21.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 467-473*

olmuşdur: " ... "Qürbət" mətbəəsində "Riyazül-aşiqin"in ikinci cildinin barəsində danışmağa getdim"[13]. Lakin Azərbaycanda, eləcə də Qarabağda baş verən siyasi hadisələr bu işin həyata keçirilməsinə mane olmuşdur.

"Təzkireyi-Nəvvab"da 90, "Riyazül-aşiqin" də isə 74 şair haqqında məlumat verilir. "Riyazül-aşiqin" də haqqında məlumat verilən şairlərin 30-dan çoxu "Təzkireyi-Nəvvab"da göstərilməmişdir.

"Riyazül-aşiqin" əsərinin üstün cəhətləri və onun ədəbi ictimaiyyətə verdiyi faydadan geniş bəhs etmək olar. Bu təzkirədə XIX əsr şairləri ilə yanaşı, xaricdə təhsil alıb vətənə qayıdan və eləcə də xalqımızı xarici ölkələrdə təmsil edən bir sıra alimlərdən də bəhs olunur.

Müctəhidzadənin "Qarabağnamə" adlı mənzuməsi yüksək vətənpərvərlik, əsil vətəndaşlıq qüruru ilə yazılmış sənət əsəridir. Burada şairin ana vətənə, onun hər guşəsinə olan dərin məhəbbətinin aydın təzahürü görünür. Əsər, həmçinin dövrün yazıçı, şair və alimləri haqqında məlumat verən bir mənbə kimi də qiymətlidir. Poema XVIII- XIX əsrlər üçün xarakterik olan ənənəvi mənzumələr kimi müxəmməs janrında yazılmışdır. Giriş hissədə Pəhah xanın Qarabağa gəlməsi və xanlığın binasının qoymasından bəhs olunur:

Hücum edib dağ-daşlardan, qayadan,
Qorxmayıblar qılınclardan, yaradan.
Elləri toplayıb ora-buradan,
Pənah xandır bu ölkəni yaradan,
Ər fatehlər meydanıdır Qarabağ[14] .

Əsərdə həmçinin bu torpağın bərəkətindən, onun behişti xatırladan mənzərəsindən, çiçəklərinin, otlarının minbir dərdə dava olmasından, zəngin təbii sərvətindən, maddi nemətlərinin bolluğundan söhbət açılır:

Dağ-daşları, meşələri, yaylağı,
Dərə, təpə, mədən suyu, bulağı,
Əti, yağı, süd-pendiri, qaymağı,
Turac, kəklik, qırqovulu, ovlağı,
Həqqin bizə ehsanıdır Qarabağ.

Vətən gözəlliklərini heyranlıqla qələmə alan şair, onun sərhəddindən də söhbət açır. Bu sətirlərin hər birində vətənə sonsuz məhəbbət, yüksək müəllif iftixarı, böyük vətəndaş qüruru hiss olunur. Şairin fərəh dolu ürək döyüntüləri misra-misra oxucunun qəlbinə axır, istər-istəməz onu öz ardınca çəkib aparır.

## IV. NƏTİCƏ

Məhəmməd ağa Müctəhidzadə (Müştəri)...

[13] AMEA ƏYİ, Fr-1644, s. 22b..
[14] AMEA ƏYİ, D-623, s. 11.

Zamanın öz axarında solğunlaşdırıb şimşək altından salladığı bir elm, sənət adamı. Öz üslubu, duyumu ilə seçilən Azərbaycan təzkirəçisi idi. Müctəhidzadə Məhəmməd ağa Mirzə Sədray oğlu. Şuşanın xətri uca parlaq zəkalarından biri.

Müctəhidzadələr on dörd nəsildən bəri bu parlaq soyadını daşımaqdadırlar. Bu nəsil zaman-zaman böyük şairlər, xəttatlar, elm-ürfan adamları yetişdirib.

Məhəmməd ağanın nəsr dili olduqca qəliz, çətin anlaşılan fars-ərəb tərkibləri ilə dolu olsa da, şeir dili sadə və anlaşıqlıdır. Şairin bir çox şeirləri oxucularına, xüsusilə gənclərə vətənin rəmzi olan ana təbiəti sevərək qoruyub saxlamaq və bununla da onların gəlbində vətən məhəbbəti kimi ali hissləri aşılamaq məqsədi daşıyır.

Şairin əsərlərində olan fikir aydınlığı, vəzn ahəngdarlığı, şeirlərində sözün məna çalarlarından məharətlə istifadə edərək fikrini təsirli və yığcam şəkildə vermə qabiliyyəti kimi keyfiyyətlər onun öz dövrünün istedadlı şairi olduğunu təsdiq edir.

Nəticə olaraq söyləyə bilərik ki, XIX əsr Qarabağ ədəbi mühitinin yetirməsi olan Məhəmməd ağa Müctəhidzadə klassik və xalq şeiri üslubunda gözəl sənət əsərləri yaradan, ədəbiyyatla yaxından bağlı olan, Vətənini, Xalqını dərin məhəbbətlə sevən əsl vətəndaş-şair olmuşdur.

**Ədəbiyyat siyahısı:**

1. Müctəhidzadə M. “Riyazül-aşiqin”, Bakı: 1995. 248 s.
2. Qarayev N. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: 2012, 327 s.
3. Poetik məclislər. (Toplayan və tərtib edəni N. Qarayev). Bakı: 1987, 528 s.
4. Nəvvab M.M. “Təzkireyi-Nəvvab” (əski əlifba ilə) Bakı: 1913, 712 s.
5. Kərimov R. Məhəmməd ağa Msştəri (Müctəhidzadə. Əsərləri”. Bakı, “Elm və təhsil”, 2021, 590 s.
6. Axundov M. X. Ömürdən səhifələr. Bakı: 1992, 128 s.
7. Azərbaycan dilinin izahlı lüğəti. https://azerbaijani_enc.en-academic.com/
8. Nəbiyev B. Firidun bəy Köçərli. Bakı: Gənclik, 1984. 228 s.
9. Nəbiyev B. Şahinin qanadları: (“Təzkireyi-Şahin” haqqında rəy) //«Elm» qəzeti. – 2002. – 19 oktyabr.
10. Musalı V. A.. Azərbaycan təzkirəçilik tarixi. – Bakı, “Elm və təhsil”, 2012, 377 s.
11. AMEA ƏYİ, Fr-1644.
12. AMEA ƏYİ, D-623.
13. Kərimov R. Məhəmməd Ağa Müctəhidzadənin həyatından səhifələr. // Əlyazmalar yanmır, 2019, № 2 (9), s.40-46. https://www.anl.az/down/meqale/elyazmalar_yanmir/2019/02/754877(meqale).pdf

**Резюме**

**КЯМАЛЯ ТАХСИН ГЫЗЫ КЕРИМОВА (МУДЖТАХИДЗАДЕ)**

**ВСЕМ СЕРДЦЕМ ЛЮБЯЩИЙ РОДИНУ – ПОЭТ**

В статье анализируются полные любви произведения талантливого азербайджанского поэта Мухаммед ага Мирза Седрай оглу Муджтахидзаде, который с бесконечной любовью любил свою родину – Гарабах и с большим энтузиазмом писал о её красоте и уникальности.

Мухаммед ага Муджтахидзаде — один из видных деятелей литературы и интеллигенции, воспитавшихся в литературной среде Гарабаха конца XIX – первой половины XX века и имевший большое влияние в народе. Патриотические чувства Мухаммад аги зародились в его сердце ещё в юном возрасте. Поэт оставался верен этим чувствам на протяжении всей своей жизни, подтверждая их как в своих литературных творениях, так и в практической деятельности.

В статье всесторонне изучаются поэтические произведения Мухаммед Аги Муджтахидзаде, пишущий свои стихи под псевдонимом «Мюштари», даётся информация о положении поэта в общественной жизни. Автор приходит к заключению, что Мухаммед ага Муджтахидзаде был истинным патриотом своей родины.

***Ключевые слова:*** *Муджтахидзаде, Риязул-ашигин, Гарабах, Тазкирейи-Навваб, художественное наследие*

**Summary**

**KAMALA TAHSIN KERIMOVA (MUJTAHIDZADE)**

**A POET WHO LOVES THE MOTHERLAND WITH ALL HIS HEART**

The article analyzes full of love works of talented Azerbaijani poet Muhammed aga Mirza Sedrai oglu Mujtahidzadeh, who loved his homeland Garabagh with infinite love and wrote about its beauty and uniqueness with great enthusiasm.

Muhammed aga Mujtahidzadeh is one of the prominent figures of literature and intellectuals, who was brought up in the literary environment of Garabagh at the end of XIX – first half of XX century and had a great influence in the people. The patriotic feelings of Muhammad aga originated in his heart at a young age. The poet remained true to these feelings throughout his life, confirming them both in his literary creations and in his practical activities.

The article comprehensively studies the poetic works of Muhammed aga Mujtahidzadeh, who writes his poems under the pseudonym "Myushtari", gives information about the poet's position in public life. The author concludes that Muhammed aga Mujtahidzadeh was the true patriot of his homeland.

***Key words:*** *Mujtahidzadeh, Riyazul-ashiq, Garabagh, Tazkireyi-Navvab, artistic heritage*

**Rəyçi: Filologiya Elmləri doktoru, professor Ağaverdi Xəlil Sərxan oğlu**